# *ŞUŞA MUSİQİ DİYARI*



*"İtaliya vokal məktəbi" Avropa musiqi mədəniyyəti tarixində hansı mövqeyi tutursa, "Şuşa vokal məktəbi" də Şərq musiqi mədəniyyəti tarixində eyni mövqeyi tutur."*

*Polad Bülbüloğlu,*
*bəstəkar, diplomat*

Dünyada bir neçə şəhər var ki, musiqi onun hər daşına, qalasına, ab-havasına hopmuşdur. Belə şəhərlərdən Avstriyanın Vyana, İtaliyanın Neapol, Azərbaycanın da Şuşa şəhəridir. Hətta xalq arasında məşhur kəlam vardır ki, "Şuşada körpələr beləkdə belə muğam üstündə ağlarlar".

Şuşa – Zaqafqaziyanın konservatoriyasıdır, təbirini və təyinini haqlı olaraq qazanmışdır. Şuşa konservatoriyasının parlaq nümayəndələri dünyanın bütün qitələrində Azərbaycan musiqisini ləyaqətlə təmsil edərək ona şöhrət gətirmişlər.

Şuşa – Mir Möhsün Nəvvabın, Xarrat Qulunun, Hacı Hüsünün, Sadıxcanın, Məşədi İsinin, Əbdülbağı Zülalovun, Cabbar Qaryağdıoğlunun, Keçəçi oğlu Məmmədin, Məşədi Məmməd Fərzəliyevin, İslam Abdullayevin, Seyid Şuşinskinin, Bülbülün, Zülfi Adıgözəlovun, Xan Şuşinskinin, Məşədi Cəmil Əmirovun, Qurban Primovun, bəstəkarlardan Üzeyir Hacıbəyovun, Zülfüqar Hacıbəyovun, Fikrət Əmirovun, Niyazinin, Əfrasiyab Bədəlbəylinin, Soltan Hacıbəyovun, Əşrəf Abbasovun, Süleyman Ələsgərovun, müğənni Rəşid Behdudovun vətənidir. Şərq musiqisinin məşhur tədqiqatçısı V.Vinoqradov hələ 1938-ci ildə Üzeyir bəy haqqında kitabında yazırdı: "Şuşada musiqi çoxdur Azərbaycanın hər hansı rayonundan daha çox xalq mahnılarını, rəqslərini, xanəndə və sazəndələrini burada eşitmək olar. Şuşa qədim zamanlardan musiqinin beşiyi kimi məşhurdur və bütün Zaqafqaziyada xalq musiqi istedadlarının tükənməz bulağı kimi şöhrət qazanmışdır. "Şuşa musiqiçiləri" Azərbaycan musiqisinin tarixini yaradırdılar və onu yalnız vətənlərində deyil, digər Şərq ölkələrində təqdim edirdilər. XIX əsrin ikinci yarısında Azərbaycanın bir sıra şəhərlərində musiqi məclisləri, cəmiyyətləri, dərnəkləri təşkil olunurdu. Belə ki, Bakıda Məşədi Məlik Mənsurovun məclisi, Şamaxıda Mahmud Ağanın, Şuşada isə Xarrat Qulu Məhəmməd oğlunun və Mir Möhsün Nəvvabın musiqi məclislərinin Azərbaycan musiqisinin inkişafında önəmli rolu olmuşdur. Şuşada birinci musiqi məclisi Şərq musiqisinin bilicisi Xarrat Qulu (1823-1883) tərəfindən təşkil edilmişdi. Bu məclis dini məqsədlə yaranmışdır, lakin burada həm də muğam sənəti öyrənilirdi. Məhərrəmlik qurtarandan sonra (onun keçirilməsinə bir neçə ay hazırlaşırdılar) xanəndələr bu muğamları artıq toylarda və başqa yerlərdə ifa edirdilər.

Musiqişünas Xarrat Qulunun məclisi Azərbaycanın muğam sənətinin inkişafında böyük rol oynamışdır. Bu məclisin üzvlərindən olan Hacı Hüsü, Məşədi İsi, Əbdülbağı Zülalov, Dəli İsmayıl, Keştazlı Həşim, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdıoğlu Şuşa vokal məktəbinin parlaq nümayəndələridir.

Xarrat Quludan sonra 80-i illərdə Şuşada "Məclisi-Fəramuşan" (Unudulmuşların məclisi) və "Musiqiçilərin məclisi" yaranır ki, onların rəhbəri, Azərbaycanın XIX əsrinin mütərəqqi xadimi, alimi, şairi, musiqişünası, rəssamı Mir Möhsün Nəvvab idi. Nəvvab Şuşada doğulmuş, yaşamış, yaratmış və orada da vəfat etmişdi (1833-1918). Ensiklopedik biliyə və nadir istedada malik olan M.M.Nəvvab Azərbaycan elmini, musiqi sənətini, ədəbiyyatını xeyli zənginləşdirmişdir. Onun çoxşaxəli fəaliyyəti, elmi müddəaları və tədqiqatları, müəllifin iyirmidən artıq əsərində öz əksini tapmışdır. Bizim üçün M.M.Nəvvabın musiqi ifaçılığı və musiqi elmi sahəsindəki fəaliyyəti xüsusilə maraqlıdır. Keçən əsrin 80-ci illərində məşhur xanəndə Hacı Hüsü ilə birlikdə yaratdığı "musiqiçilər cəmiyyəti"ndə musiqi sənətinin estetik problemləri, xanəndələrin ifaçılığı, klassik müğamları müşayiət edən şerlər müzakirə olunurdu. Cəmiyyətə öz vaxtının məşhur xanəndə və sazəndələri Hacı Hüsü, Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Seyid Şuşinski və b. daxil idi. Bir çox musiqiçilər özlərinin ilk təhsilini məhz bu cəmiyyətdə almışlar. Burada müzakirə olunan problemlərdən bəziləri öz əksini və sonrakı inkişafını M.M.Nəvvabın "Vüzuhül-ərqam" risaləsində tapmışdır. Mir Möhsün Nəvvab musiqi sənəti haqqında "Vüzuhül-ərqam" risaləsini (Rəqəmlərin izahı) 1884-cü ildə Şuşada yazmışdır. "Vüzuhül-ərqam" XIX əsrin sonunda Azərbaycan musiqisi haqqında Azərbaycan dilində (ərəb əlifbasıyla) yazılmış və çap edilmiş yeganə risalə idi. Bu risalənin Şərqdə ümumən risalələrin az yazılan bir dövründə yaranması və Şuşanın muğam nəzəriyyəsinin ənənələrinin "Vüzuhül-ərqam" risaləsində davam etdirilməsi faktı artıq böyük maraq doğururdu. Nəvvab risaləsində ifaçılıq qaydalarına da böyük əhəmiyyət vermiş, onun estetika, akustika məsələlərini əsas şərtlərdən hesab etmişdir. Bu, həm də onu sübut edir ki, M.M.Nəvvabın dövründə Qarabağda, Şuşada yüksək səviyyəli ifaçılıq sənətinə tələbat da olduqca böyük idi. Şuşa vokal sənətinin ən görkəmli nümayəndələrindən biri Xarrat Qulunun yetişdirməsi Hacı Hüsü idi (?-1898). O, şuşalılar qarşısında ilk dəfə "Xandəmirovun teatrı" binasında "Xeyriyyə gecəsi"ndə tarzən Sadıxcanın müşayətilə çıxış edərək "Çahargah"ı elə oxumuşdur ki, onun şöhrəti hər yerə yayılmışdır. Hacı Hüsü tək Azərbaycanın toylarına deyil, Yaxın və Orta Şərqin bir sıra şəhərlərinin məclislərinə dəvət olunurdu. Məsələn, 1880-cı ildə İran şahı Nəsrəddin Hacı Hüsünü öz oğlunun toyuna Təbrizə dəvət etmişdir. Hacı Hüsünü həmin məclisdə müşayiət edən tarzən Sadıxcan və kamançaçı Bağdagül Ata idi. Bu toyda Hacı Hüsü digər məşhur İran musiqiçəliriylə bərabər çıxış etmişdir. Lakin toyun sonunda şah tərəfindən verilən birinci mükafata məhz Hacı Hüsü layiq görülmüşdür.

Hacı Hüsü gözəl xanəndə olmaqla bərabər, həm də Şərq və Azərbaycan muğamlarını əla bilən musiqişünas və müəllim kimi də məşhur idi. O, bir sıra muğamları təkmilləşdirmiş, onların yeni variantlarını yaratmışdır. Məsələn, o, "Kürdi" muğamına "Şahnaz"ı əlavə etmiş və yeni "Kürdi-Şahnaz" muğamını yaradıb oxumuşdur. Cabbar Qaryağdıoğlunun yazdığına görə, Hacı Hüsü Sadıxcanın tarda müşayiətilə "Qatar" muğamının da yaradıcısıdır.

Hacı Hüsünün çıxışlarını çox vaxt tarda müşayiət edən böyük tarzən Mirzə Sadıq Əsəd oğlu olmuşdu (1846-1902). Xalq arasında o, Sadıxcan kimi məşhur idi. Mirzə Sadıq Azərbaycanda və Zaqafqaziya xalqları arasında böyük şöhrət və məhəbbət qazanmış ustad sənətkar idi. Onun "Sadıxcan" adlanması da görünür bu məhəbbətin ifadəsi idi. Mirzə Sadıq İran şahının oğlunun toyunda böyük bacarıq və ustalıq göstərdiyinə görə, şah onu "Şiri-Xurşid" qızıl medalıyla təltif etmişdi.

Mirzə Sadıqın musiqimizin tarixində xidmətləri böyük idi. O, çoxəsrli tarı rekonstruksiya edərək təkmilləşdirmiş, beş simli zəif səslənən tara altı simi də əlavə edərək simlərin sayını on birə qədər artırmışdı. Tarın qolunda olan pərdələrin sayını isə azaldaraq 17 pərdəyə endirmişdi. Tarın rezonansını artırmaq üçün də Sadıxcan bir sıra işlər görmüşdü, tara zildə səslənən yeni pərdələr əlavə etmiş, həmçinin "lal barmaq" üslubunu icad etmişdi.

Əvvəllər tarı diz üstə əyilərək çalırdılar. Sadıxcan bu üsulu ləğv edərək, tarı sinə üzərində tutaraq çalmışdı. Mirzə Sadıq yeni Azərbaycan tarının yaradıcısı idi. Onu "tarın atası" adlandırırdılar. Mirzə Sadıq tarla bərabər muğamları da təkmilləşdirmiş, tarın qoluna "Zabul" pərdəsini, "Mirzə Hüseyn Segah"ına isə "Müxalifi" əlavə etmişdir. Sadıxcan iri əllərə, uzun və güclü barmaqlara sahib idi, deyilənə görə onun tarda işlətdiyi barmaqları, vurduğu mizrabları heç kəs təkrar edə bilməmişdir. Ona baxmayaraq qeyd etməliyik ki, Məşədi Zeynal, Meşədi Cəmil Əmirov, Şirin Axundov, Qurban Primov kimi mahir tarzənlər məhz Sadıxcan məktəbinin gözəl davamçılarıdır.

1897-ci ildə Şuşada yazıçı Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə həvəskar aktyorların ifasında dahi Azərbaycan şairi Füzulinin poeması əsasında "Leyli Məcnunun məzarı üstündə" musiqili səhnəcik göstərildi. Məcnun rolunu məşhur xanəndə Cabbar Qaryağdıoğlu (1861-1944) oynayırdı. 1902-ci ildə "Fərhad və Şirin" mövzusunda ikinci belə musiqili səhnə qoyuldu. Fərhad rolunu yenə də Cabbar Qaryağdıoğlu ifa edirdi. O, xalq xanəndəsi və bəstəkarı kimi məşhur idi. Cabbar Qaryağdıoğlu öz sözlərinə çoxlu mahnı, təsniflər üçün isə şeirlər yazmışdır. "Bakı", "Bəsti", "Tiflisin yolları" və bir çox mahnıların müəllifi idi. Cabbar Qaryağdıoğlunun yüksək tessitura və geniş diapazonlu gözəl tenoru var idi. Onun kimi "Mənsuriyyə", "Heyratı", "Kürdi-Şahnaz" oxuyan yox idi. Onun səsini məşhur italyan tenoru Karuzo ilə müqayisə edirdilər. Yesenin onu "Şərq musiqisinin peyğəmbəri" adlandırmışdır. Hələ 1906-1912-ci illərdə onun səsi Kiyev, Moskva, Varşavada bir sıra aksioner cəmiyyətlər tərəfindən fonovalikə yazılmışdır. Cabbar

Qaryağdıoğlu Azərbaycan vokal sənətinin tarixində yeni səhifə açmışdır. O, musiqili-ədəbi və şərq konsertlərində çıxış edərək, milli operanın yaranmasında önəmli rol oynadı, onun üçün münbit zəmin yaratdı. Cabbar Qaryağdıoğlundan sonra Şuşa xanəndəlik məktəbinin ən parlaq nümayəndəsi Seyid Şuşinski idi (1889-1965). Cabbar Qaryağdıoğlu onu "Şərq musiqisinin incisi" adlandırmışdı. Seyid Şuşinskinin 1908-ci ildə Şuşanın "Yay klub"unda keçən ilk uğurlu çıxışından sonra Cabbar səhnəyə çıxıb Seyidi bağrına basaraq gözləri yaşarmış halda demişdi: "indi mən ölsəm də, daha qəmim yoxdur, çünki məndən sonra Seyid vardır". Sonrakı çıxışlarının birində isə Cabbar Seyidin oxumağından riqqətlənərək öz qavalını ona bağışlamışdı. Nadir və gözəl səsə malik Seyid Şuşinski xanəndəlik sənətinin sirrlərinə yiyələnmək üçün ən əvvəl iki il Nəvvabın yanında oxumuşdu. Sonrakı müəllimi Cabbar Qaryağdıoğlu olmuşdu. Seyid Şuşinski ifa üçün mürəkkəb muğam olan "Cahangah"ı xüsusilə böyük məharətlə oxuyardı, özü də həmişə onu "mayə"dən yox, "Mənsuriyyə"dən başlayardı, zildə böyük ustalıqla zənkulələr vuraraq, sonra "mayə"yə enərdi. Maraqlıdır ki, həyatının son illərində, yaşı artıq 74-ü ötmüş Seyid "Mənsuriyyə"ni eyni şövqlə oxuyurdu. Seyid Şuşinski yaradıcılığında Hafiz, Füzuli, Seyid Əzim qəzəllərilə yanaşı, Cavidin və Sabirin şeirlərinə də müraciət edirdi. Sabirin "Millət necə tarac olur-olsun, nə işim var" şeirini "Müxalif"də oxuyardı. Seyid Şuşinski siyasi-ictimai mövzuda şeir və qəzəl oxuyan, xalqı mübarizəyə çağıran ilk xanəndə olmuşdur. O, bir sıra mübariz ruhlu mahnılar da oxumuşdur. "Ayıl ey millət", "Mən bir türkəm", "Millət istərsə" və s.

Seyid Şuşinski, Mirzə Cəlil, Əblürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, Hüseyn Ərəblinski kimi sənətkarlarla dostluq edirdi. Molla Nəsrəddinin bir neçə nömrəsinin çıxmağına maddi yardım göstərmişdi. Ümumiyyətlə, Seyid Şuşinski böyük mesenat idi, o dövrün teatr aktyorlarına çox kömək etmişdi, özü də aktyor kimi bir sıra rolları oynamışdı. Seyid Şuşinski "Cahargah"dan başqa "Mahur", "Nəva", "Məsnəvi", "Mani", "Arazbarı", "Heyratı" kimi muğamların gözəl ifaçısı idi. O, novator sənətkar olaraq, bir çox muğamları birləşdirib onları yeni variantda oxumuşdur. ("Rast-Humayun", "Qatar-Bayatı", "Şur-Şahnaz") "Rast"da və "Kürdi-Şahnaz"da "Dilkəş"i ilk dəfə Seyid Şuşinski ifa etmişdi.Onu da qeyd edək ki, Seyid Şuşinskinin görkəmli bəstəkarımız Fikrət Əmirovun ilk dəfə yaratdığı və dünyada şöhrət qazandığı "Şur" və "Kürdi-Ovşarı" simfonik muğamlarının yazılmasında məsləhətçi kimi böyük köməyi olmuşdu.(Fikrət Əmirov məşhur tarzən, Şuşa sazəndəlik məktəbinin görkəmli nümayəndəsi, həm də "Seyfül-Mülük" operasının müəllifi Məşədi Cəmil Əmirovun oğludur).

Qarabağdan çıxan muğam ustaları arasında öz məlahətli səsi, xüsusi pəsxanlığı ilə seçilən və xalqın ürəyinə yol tapan xanəndələrdən biri də Zülfüqar Adıgözəlov idi (1898-1963). 1920-ci illərin axırlarında Şuşa məclislərinin birində Cabbar Qaryağdıoğlu onu eşitmiş, bəyənmiş və Bakıya dəvət etmişdi. Bakıda, dövlət flarmoniyasında işləyə-işləyə, o, sənətkarlığını artırmış, cilalaşdırmışdı.

Z.Adıgözəlov opera teatrında da bəzi rollarda çıxış etmişdi. Çox tez o, gözəl səsinə, aydın diksiyasına, səmimi, sərbəst oxumağına görə populyar olur. Xalq onu mehribanlıqla "Zülfi" deyə çağırır. Zülfi Adıgözəlov "Rast" muğanının mahir ifaçısı idi. Necə ki, Cabbar "Mahur"u, Seyid "Cahargah"ı, Islam Abdullayev "Segah"ı xüsusi məharətlə, özünə məxsus təkrarsız üslubda oxuyardı, eləcə də Zülfi Adıgözəlov "Rast"ı o cür ustalıqla ifa edərdi."Rast"ın düzlük, mərdlik, vüsət kimi xüsusiyyətlərini vurğulaya bilirdi. Zülfi "Orta Segah"ı da gözəl oxuyardı. Zülfi Adıgözəlov "Nəbi", "Kəklik", "Dedim bir busə ver", "Bir cüt sona" kimi xalq mahnılarının mahir ifaçısı idi. Onun "Mən gedirəm Zəngilana" təsnifini böyük hisslə, təsirli oxuması hamını heyran edirdi. Zülfi Adıgözəlovun gözəl səsi Azərbaycanfilm studiyasının çəkdiyi "Kəndlilər", "Səbuhi", "Bakılılar" filmlərində də səslənir. Şuşanın xanəndəlik məktəbinin son korifeylərindən olan Xan Şuşinski (1901-1979) haqqında söz açdıqda qeyri-ixtiyari Səməd Vurğunun "Azərbaycan" şeirinin bu misraları yada düşür:

Könlüm keçir Qarabağdan
Gah bu dağdan, gah o dağdan.
Axşam üstü qoy uzaqdan
Havalansın Xanın səsi
Qarabağın şikəstəsi.

İndi bu misralar adamı xüsusilə kövrəldir, acıdır. İllər boyu gözəl Qarabağın, onun musiqi və poeziya beşiyi Şuşanın şərəfinə bir sıra şairlərimiz şeirlər yazmışlar, onların bir qismində Xan Şuşinskinin səsi və sənətkarlığı da vəsf edilir. Xan Şuşinskinin ilk müəllimi, xanəndəlik tariximizə "Segah" muğamının ustadı kimi daxil olmuş İslam Abdullayev olmuşdu. Elə Xan Şuşinski adını da gənc İsfəndiyara İslam Abdullayev özü vermişdi. Bir gün Şuşanın musiqi məclislərinin birində gənc İsfəndiyarla bərabər iştirak edən İslam Abdullayev ev yiyəsindən xahiş edir ki, onlar üçün o zaman məşhur olan Təbrizli xanəndə Əbdülhəsən Xanın qrammafon valını səsləndirsin. Xanəndə "Kürdi-Şahnaz" oxuyurdu. Valı dəfələrlə dinlədikdən sonra məclis əhli gənc İsfəndiyardan xahiş edir ki, həmin muğamı təkrar oxusun. O, bu muğamı zildə böyük məharətlə oxuyur və bununla hamını heyrətləndirir. İsfəndiyarın əsl Xan kimi oxumağından qürurlanan müəllimi İslam gənc xanəndəyə o gündən Xan adını verir. Xan Şuşinskinin etirafına görə onun kamil xanəndə kimi yetişməsində İslam Abdullayevdən sonra Cabbar Qaryağdıoğlunun və Seyid Şuşinskinin böyük rolu olmuşdu. Xan Şuşinskinin geniş diapozonlu, yüksək tessituralı qüvvətli səsi var idi. O, bütün muğamları böyük ustalıqla oxuyurdu. Lakin "Mahur-hindi"ni onun kimi oxuyan olmamışdı. Xan "Segah" muğamının da mahir ifaçısı idi. "Qarabağ şikəstəsi"ni isə təkrar olunmaz bir məharətlə oxuyurdu. Xan gözəl qaval çaldığına görə ritmik muğamlarının da mahir ifaçısı idi. Xan Şuşinski Üzeyir bəyin "Qara göz" mahnısını xüsusi şirinliklə oxuyardı. Xanın özü bir sıra mahnıların müəllifi idi. Onlardan "Qəmərim", "Ay gözəl", "Məndən gen gəzmə", "Al yanağından", "Ölürəm a Ceyran bala" və nəhayət Şuşaya həsr etdiyi və dillər əzbəri olan "Şuşanın dağları başı dumanlı" mahnılarıdır.Şərqdə ilk opera olan "Leyli və Məcnun"u digər dahi

Şuşalı Üzeyir Hacıbəyov 1907-ci ildə yazmağa başlayır. Amma bu operanın mövzusu bir qədər əvvəl 1897-98-ci illərdə hələ bəstəkar Şuşada yaşayarkən qəlbində həkk olmuşdur. Şuşada göstərilən "Məcnun Leylinin məzarı üstündə" mövzusunda səhnəcikdə balaca Üzeyir özü də xorda oxuyurdu.12 yanvar 1908-ci il bütün müsəlman Şərqində ilk opera "Leyli və Məcnun"un premyerasından sonra, Azərbaycan musiqisində yaranmış elə forma, janr tapmaq olmazdı ki, Üzeyir Hacıbəyovun adıyla bağlı olmasın."Leyli və Məcnun" operası isə musiqi mədəniyyəti tarixində ilk muğam operası oldu. O, Üzeyir Hacıbəyovun "Şeyx Sənan", "Rüstəm və Zöhrab", "Şah Abbas və Xurşidbanu", "Əsli və Kərəm", "Harun və Leyla", M. Maqomayevin "Şah İsmayıl", Z. Hacıbəyovun "Aşıq Qərib" kimi muğam operalarının üslubunu müəyyənləşdirdi.

Azərbaycan musiqisinin inkişafında Qarabağdan, Şuşadan çıxmış digər sənətkarlarımızın, məşhur xanəndə və sazəndələrimizin, bəstəkarlarımızın, ifaçılarımızın rolu böyük olmuşdur. Biz yalnız bir qisminin üzərində dayana bildik. Qeyd edək ki, həyatının son illərinə qədər görkəmli bəstəkar və dirijorumuz Niyazi simfonik konsertlərlə qastrola Qarabağa, Şuşaya gedərdi. Maestronun açıq havada, "Cıdır düzü"ndə keçən konsertləri heç vaxt unudulmur.

Şuşa 28 illik zamandan sonra yenidən musiqi beşiyi olduğunu bəyan etdi. Tarixən böyük musiqiçilər nəsli yetişdirən bu məkanda keçirilən "Xarıbülbül" festivalı bütün dünyaya səs saldı. Buranın hər ağacı, hər qayası, axar suyu bu musiqinin avazı ilə nəfəs almış, bu musiqi qayaların, divarların, lal daşların da yaddaşına hopmuşdur. Əsrlərin yaddaşı var bu diyarda. Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə müzəffər ordumuz 44 Günlük Vətən müharibəsində həsrətində olduğumuz torpaqlarımızı geri qaytardı. Bu gün Şuşa yeni bir ab-havadadır. Abadlıq-quruculuq işlərinin, yeni infrastrukturun yaradılması, tarixi-mədəni dini abidələrin bərpa və inşası və s. Şuşada böyük bir həyatın canlanmasından xəbər verir. Şuşada üçrəngli Azərbaycan bayrağının dalğalandırılması, Novruz bayramında Şuşada yandırılan tonqal bu torpağa Böyük qayıdışın işığı idi. İndi toy-büsata bürünüb Şuşamız. Öz köklü-şəcərəli insanlarına qucaq açıb. Buranın hər qarışında qan izi olduğundan Şuşa bizim üçün bir and yerinə, müqəddəs məkana çevrilib. Şuşamız bayram libasını geyinib. Gözəl ifa, klassik musiqi bütün aləmə dolaşıb. Şuşa sentyabrın 18-də yenidən toy-büsata büründü. Xalqın milli və klassik musiqisi dağları-dərələri aşdı. Hər kəsin könlü xoş oldu. Ruhu bu məkanlarda dolaşan insanlar azad, rahat nəfəs aldılar. Şuşada ilk dəfə Milli Musiqi Günü çərçivəsində Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının konserti keçirildi. Bu konsert avqustun 29-da Azərbaycan Prezidentinin iştirakı ilə açılışı olan Üzeyir bəyin heykəli qarşısında baş tutdu. Mədəniyyət Nazirliyinin və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə iştirak edən nümayəndə heyətinin üzvləri xalq artisti Bülbülün evini və Natəvan bulağını ziyarət etdilər. Şuşalılar Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün heykəlləri önünə gül dəstələri qoyaraq ziyarət etdilər. Bundan qürürverici nə ola bilər? Həsrətlə gözlədiyimiz Şuşamızın, "Qafqazın Konservatoriyası"nın torpağındayıq. Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşada. Bu

yerləri gəzmək xoş olmaqla yanaşı, bir təəssüf hissi də oyadır insanda. Bir zamanlar mədəniyyət abidələri ilə seçilən Şuşamız erməni işğalçıları tərəfindən dağıdılıb, tar-mar olunubdu. Erməni işğalçılarının izi var hər qarışında. Tarixi, mədəni abidələrimiz dağıdılıb, ev muzeyləri qarət edilib. Uzun illər idi ki, heykəlləri güllənmiş Xan qızı, Üzeyir bəy, böyük nəğməkar Bülbül öz doğma yurdlarına qayıdacaqları günü gözləyirdilər. Belə ki, donmuş üzlər hərəkətə gələcək, uzaq kimi görünən yollar bir addımlıqda olacaqdı. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Cansız heykəllərə güllə ataraq qiymətli heykəlləri, milli memarlıq abidələrini, muzey əşyalarını güllləbaran etmişdilər. Prezident İlham Əliyev hələ Vətən müharibəsindən öncə qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Üzeyir Hacıbəylinin, Natəvanın, Bülbülün büstləri Şuşaya qaytarılacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrildi. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərində bu qədim Azərbaycan şəhərinə gələn qonaqları salamlayır. Bu gün Üzeyir Hacıbəylinin, Xurşidbanu Natəvanın, Bülbülün Şuşadakı büstləri öz məkanlarında rahat nəfəs alır. Azad Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəli də ucaldılıb. Xatırladaq ki, 1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada bəstəkarın heykəli ucaldılmışdı. Heykəltəraş Əhməd Salikov tərəfindən hazırlanan abidə 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilmişdi. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq bəstəkarın yeni heykəli hazırlanıb. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 29 ildən sonra 12-13 may 2021-ci ildə “Xarıbülbül” musiqi festivalı ölkəmizin mədəniyyət paytaxtı Şuşanın əsrarəngiz Cıdır düzündə yenidən təşkil olundu.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən festivalın ilk günündə ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı “Azərbaycan musiqisində multikulturalizm” mövzusunda təqdim edilib. Ölkəmizin müxtəlif bölgələrində yaşayan ayrı-ayrı xalqların musiqi qrupları və ifaçıları öz çıxışları ilə Azərbaycanın millətindən, dinindən asılı olmayaraq hər bir kəsin vahid Vətəni olduğunu, hər bir vətəndaşın da bu torpaq uğrunda yaşadığı ideyasını çatdırıb.